## Qeydiyyat haqqında

### Marafonda iştirak üçün ödəniş

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün ödəniş məbləği 20 AZN-dir. Korporativ olaraq qoşulanlar isə **info@marathon.az** elektron poçt ünvanına yazaraq müraciət edə bilərlər.

Tələbələrin marafonda iştirakı üçün vəsaiti Heydər Əliyev Fondu ödədiyindən, onlar qeydiyyat zamanı ödəniş etməyəcəklər.

### Qeydiyyat

18 yaşdan yuxarı şəxslər Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Dəniz Mall") qeydiyyat məntəqələrinə və ya "Bakı Marafonu - 2026"ın saytına - **www.marathon.az** müraciət edə bilərlər. Qeydiyyat zamanı müvafiq anket formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr eyni zamanda tələbə vəsiqəsinin surətini) təqdim etmək və iştirak üçün müəyyən olunmuş vəsaiti ödəmək lazımdır.

### İştirak qaydaları

Yarışda 18 və daha yuxarı yaşda olan şəxslər iştirak edə bilərlər.

İştirakçının yarış nömrəsi onun şəxsiyyətini müəyyənləşdirməyə imkan verir və dəyişdirilə, əvəz edilə, başqa şəxsə satıla bilməz. Yarış nömrələrinin satılması, dəyişdirilməsi qadağandır və bu, baş verdiyi halda, iştirakçının yarışdan kənarlaşdırılması və ya gələcək tədbirlərə buraxılmaması ilə nəticələnə bilər.

Qeydiyyat prosesi yarışın internet səhifəsində elan olunacaq vaxtda bitir. Qeydiyyat vaxtından sonra istisna hallar mümkün deyil. Yalnız təşkilatçılar yarış vaxtını dəyişmək haqqına sahibdirlər.

Yarış günü iştirakçılar spirtli içki və narkotik maddələrin təsiri altında olmamalıdırlar.

### İştirakçının yarışa buraxılmaması

Start xəttinə vaxtında gələ bilməyən istənilən iştirakçı yarışa buraxılmır və etdiyi ödəniş geri qaytarılmır.

### Yarışın ləğvi və dəyişdirilməsi

Təşkilatçılar istənilən vaxt yarışın vaxtını dəyişə bilərlər. Dəyişikliklər, məsələn, start vaxtının dəyişdirilməsi və s. olduğu halda iştirakçılara əvvəlcədən məlumat veriləcəkdir.

### Kənarlaşdırılma

1. Nəzarətçilər qayda və şərtləri pozduğu halda istənilən iştirakçını yarışdan kənarlaşdıra bilərlər.

2. Kənarlaşdırma aşağıdakı hallarda ola bilər:

- İştirakçı öz nömrəsini başqa yarışçı ilə təşkilatçının əvvəlcədən razılığı olmadan dəyişdirərsə;

- İştirakçı təyin olunmuş marşrutdan kənara çıxarsa;

- Iştirakçı yarış rəsmisinin göstərişlərinə əməl etməzsə və ya yarış rəsmisi, könüllülər, yaxud tamaşaçılara qarşı təhqiramiz hərəkət və ifadələrdən istifadə edərsə.

**Yarış günü**

1. İştirakçılar yarışdan əvvəl, yarış vaxtı və yarışdan sonra bütün yarış rəsmiləri, eləcədə heyət, könüllülər, tibbi heyət, mühafizə və şəhər rəsmiləri tərəfindən verilən göstərişlərə əməl etməlidirlər.
2. Hər bir iştirakçı köynəyin ön tərəfinə yazılan və bütün yarış boyu görünən yarış nömrəsi ilə təmin olunmalıdır.
3. İştirakçılar yarış təşkilatçılarını sağlamlıq problemləri və ya qəbul etdikləri dərmanlar barədə xəbərdar etməlidirlər.
4. İştirakçılar yarışa rəsmi elan olunmuş start vaxtında başlamalıdırlar.

**Öhdəlik**

1. Yarışda iştirak iştirakçının şəxsi riskidir.
2. Təşkilatçı itən əşyalara, dəymiş ziyana cavabdeh deyil.
3. Təşkilatçı iştirakçıya üz verən itkiyə və ya dəymiş ziyana görə məsuliyyət daşımır.
4. Təşkilatçı tamaşaçıların və üçüncü tərəfin davranışına cavabdeh deyil.
5. Təşkilatçı yarış günü verilən ərzaq və içki məhsullarından yaranan hallara (allergiya və s.) görə məsuliyyət daşımır.

**Qadağan olunan əşyalar**

- Təhlükə yarada biləcək və ya "ikili istifadəsi" mümkün olan əşyalar təhlükəli hesab oluna bilər (məsələn, çəkic, mişar, itiuclu, kəsici alətlər və s.);
- Tez alışan mayelər, yanacaq, fişəng, zəhərli kimyəvi və partlayıcı maddələr;
- Böyük bağlamalar;
- Qeyri-şəffaf zibil qutuları və plastik qablar;
- Heyvanlar/ev heyvanları;
- Qatlanan stullar, bükülən düşərgə stulları və istənilən növ masalar;
- Bir litrdən çox tutumu olan maye qabları;
- Çamadanlar və diyircəkli çamadanlar.

**HÖRMƏTLƏ, BAKI MARAFONU 2026**